Azərbaycan Respublikası

Siyəzən Rayon İcra Hakimiyyəti başçısının

S Ə R Ə N C A M I

№ 66 21 iyul 2014-cü il

**Siyəzən şəhərinin Məşədi Əzizbəyov küçəsinin adının dəyişdirilərək Aydın Qaradağlı adı ilə əvəz edilməsi haqqında**

Siyəzən rayon ziyalıları və rayon ictimaiyyətinin bir qrup nümayəndəsinin Siyəzən şəhərinin küçələrindən birinə Azərbaycanda peşəkar diktorluq məktəbinin yaradıcısı, Azərbaycanın əməkdar artisti Aydın Çingiz oğlu Qaradağlının adının verilməsi haqqında Rayon İcra Hakimiyyəti başçısının ünvanına daxil olmuş müraciətini və sovet ittifaqı zamanından qalmış xalqımızın iradəsinə və milli dəyərlərinə zidd olan küçə adlarının dəyişdirilməsi zərurətini nəzərə alaraq “Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında” Azərbaycan Respublikası Qanununun 9.8-ci maddəsinə və Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”nin 4.11.17-ci bəndinə əsasən **qərara alıram:**

1. Siyəzən şəhərinin Məşədi Əzizbəyov küçəsinin adı dəyişdirilərək Aydın Qaradağlı adı ilə əvəz edilsin.
2. Siyəzən Rayon İcra Hakimiyyəti başçısının Siyəzən şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi sərəncamdan irəli gələn məsələləri həll etsin.
3. Dəyişiklik barədə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə məlumat verilsin.
4. Sərəncamın icrasına nəzarət başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Zəfər Əliyevə tapşırılsın.

**Siyəzən Rayon**
**İcra Hakimiyyətinin**
**başçısı** **Arif Qasımov**